ÖRNƏK SAYILACAQ ÖMÜR SAHİBİ

Tanınmış alim və səqiştəli pedaqoq, "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi", filologiya üzrə fəlsəfə doktoru, dosent Rasim İmamqulu oğlu Süleymanovun 70 yaşı tamam olur. Onun haqqında ziyalılarımızın ürək sözlərini oxucularımıza təqdim edirik.

Knyaz Aslan,
Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Həyatda hər kəsin öz taleyi var. Bu tale, bu qismət insanı özündən xəbərsiz keşməkeşli istiqamətlərə yönəldir, dolanbac ömür yollarından keçirir. İnsan bu gözlənilməz həyat axarında mübarizə apara-apara kədərə də tuş gəlir, sevinc də dadır, arzu-istəklərinə də qovuşur. Ürəyinin diktəsi ilə taleyinin bəxşişi, arzu-diləkləri ilə ona qucaq açan əsrarəngiz yolların səmti bir çox məqamlarda üstüstə düşən tanınmış ziyalılarımızdan biri də Bakı Dövlət Universitetinin Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Rasim Süleymanovdur.

Rasim İmamqulu oğlu Süleymanov 1948-ci ilin payızında xalqımızın tarixində özünəməxsus yeri olan Tərtər rayonunun Düyərli kəndində dünyaya göz açıb, mənəvi zənginliyinin, daxili bütövlüyünün bünövrəsini bu torpaqda formalaşdırıb. Şuşa şəhər 2 nömrəli internat məktəbində və Tərtər şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alıb.

Doğma yurdda mədəniyyətə, sözə, biliyə, elmə verilən yüksək qiymət gənc Rasim Süleymanovu öz cazibəsunə alaraq, Azərbaycanın ilk elm və təhsil ocağına - Bakı Dövlət Universitetinə gətirib. 1970-1975-ci illərdə BDU-nun Kitabxanaçılıq fakültəsində "Kitabşünaslıq" ixtisası üzrə təhsil alıb, düşdüyü mühitin təsiri sayəsində kitab aləminin sirlərinə yiyələnib, yüksək mənəvi amalları, bəşəri dəyərləri hər şeydən uca tutmağa çalışıb.

BDU-nu fərqlənmə diplomu ilə bitirəndən sonra bir müddət Dövlət Mətbuat Komitəsi sistemində baş əmtəəşünas işləyib.

Rasim Süleymanovun kitabşünaslıq elminə olan marağı onu bu sahədə tədqiqatlar aparmağa sövq edib və o, Bakı Dövlət Universitetinin aspiranturasında "Kitabşünaslıq" ixtisası üzrə əyani təhsil alan ilk aspirant kimi adını tarixə yazıb. 1980-ci ildən isə BDU-da müəllim işləyə-işləyə elmi araşdırmalarını da davam etdirib, kitabşünaslıq elminin sirlərinə yiyələnmək üçün fasiləsiz mütaliə ilə məşğul olub, dünyagörüşünü, həyata baxışını zənginləşdirib.

Uzun illər ərzində çəkdiyi əziyyət öz bəhrəsini 1991-ci ildə verib: "Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri məsələləri (1920-1970-cı illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi (filologiya üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi alıb.

1990-cı illərdə BDU-nun Tədris işləri üzrə birinci prorektorun müavini, Magistratura bölməsinin rəhbəri və rektorun köməkçisi, daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası rektorunun məsləhətçisi və Böyük Elmi Şuranın məsul katibi vəzifələrini yerinə yetirib.

2003-2013-cü illərdə isə Azərbaycan Respublikası təhsil nazirinin köməkçisi və Kollegiyanın katibi vəzifələrində fəaliyyət göstərib. 2011-ci ildən dövlət qulluğunun müşaviridir.

Dosent Rasim Süleymanov14 kitabın, 70-dən çox elmi məqalənin müəllifidir. Alimin yazdığı kitablar və elmi məqalələr tələbə və müəllimlər üçün böyük dəyərə malikdir. "Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" adlı fundamental monoqrafiyası isə çap ərəfəsindədir.

Hazırda Rasim Süleymanov Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosentidir. Eyni zamanda 2015-ci ildən "Kitabşünaslıq və redaktor sənəti" elmi-nəzəri və təcrübi-metodik jurnalının redaktorudur. Universitet və fakültənin ictimai və mədəni həyatında yaxından iştirak edir.

Dosent Rasim Süleymanov səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi" fəxri adı, Bakı Dövlət Universitetinin "Xatirə Medalı" və başqa mükafatlarla təltif olunub.

Zənnimizcə, ən böyük mükafat Tanrının ona bəxş etdiyi bu ömrü halallıqla, ürəkaçıqlığı ilə, nikbinliklə yaşamasıdır. Ömrün yetmişinci baharını, həyatın müdriklik çağını alnıaçıq-üzüağ qarşılayan dosent Rasim Süleymanova bu halal həyat yollarında möhkəm cansağlığı, daha böyük elmi uğurlar arzulayırıq!..

* * *

Vüqar Əliyev,
Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru, professor

Əslində, müəllimi haqqında yazmaq tələbəsi üçün məsuliyyətli olduğu qədər, həm də qürurvericidir. Açıq etiraf edək, hər müəllim yalnız müsbət xatirələrlə yaddaşlarda qalmır. Rasim müəllim məhz yaddaşımızda hər zaman bu cür qalmış ustad pedaqoqlarımızdandır.

Onunla ilk tanışlığımız ikinci kursda oldu. Bizə "Türk xalqlarının ədəbiyyatı"ndan dərs deyirdi.Cəmi bir semestr davam etdi bu fənn. Amma 22 ildir ki,həm özünə, həm fənninə olan sevgimiz davam etməkdədir. Buna təkcə öz elmi və zəngin dünyagörüşü, auditoriyaya, tələbələrə professional pedoqoji yanaşması ilə deyil, həm də öz insanlığı və tam mübaliğəsiz demək lazımdır ki, son dərəcə böyük mədəniyyəti və kübarlığı ilə nail oldu.

Təsəvvür edin ki, yazını qələmə aldığım zaman, özüm qəsdən, artıq 21 ildir ki, ali məktəbin bakalavr pilləsini bitirmiş, lakin indinin özündə də sıx ünsiyyətdə olduğumuz qrup yoldaşlarıma Rasim müəllimin yubileyi üçün hazırlanan kitaba haqqında yazı yazdığımı söylədim. Müsbət qarşılanan bu xəbər onları sevindirdi, yaddaşlarımızda əziz müəllimimizlə bağlı yer almış xoş xatirələr təzələndi. Məncə, əsl müəllim məhz belə olmalıdır. İllər keçsə belə, tələbələrinin heç zaman unutmayacağı və haqqında yalnız xoş, isti sözlər deyə biləcəyi bir Şəxsiyyət! Yalnız belə bir insan müəllim adını qürurla daşıya bilər. Rasim müəllim bizim belə MÜƏLLİMİMİZ olub.

Rasim müəllim, təkcə öz adımdan deyil, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin Beynəlxalq jurnalistika ixtisası üzrə 1999-cu il bakalavr məzunları adından Sizi - əziz müəllimimizi ürəkdən təbrik edirəm. Müəllim sabahı aydınladan bir çıraqdır, işıqdır. Sizin kimi ziyalı bir insandan dərs aldığımıza görə sevincliyik. Təbrik edirik, ustad!

* * *

Zahid Əhmədov,
Azərbaycan Milli Elmlər Akademiyası, tərcüməçi-publisist

Xasiyyətində ipək yumşaqlığı, dilində bal şirinliyi, davranışında qarşısındakına hörmət-izzət ölçüsü var. Söhbətindən ilahi bir rahatlıq duyursan. Nurlu, bir az da qəmli gözlərindən təmənnasızlıq yağır. Təbəssümü səhər şəfəqi qədər ilıqdır. Onunla görüşdən, ünsiyyətdən,etdiyin hər müraciətə kəlmə-başı söylədiyi "bəli", "baş üstə", "öpürəm" kəlmələrindən dincəlirsən, öz-özlüyündə xətir-hörmətə minirsən. Boyunun gözoxşayan görkəmində, davranışında bir ağayanalıq var. Ürəyi yumşaqdır, dərdini danışarsan, bir də görərsən gözləri nəmləndi. Sevinmək üçün ona çox şey lazım deyil, bir ilıq təbəssüm, bir xoş xəbər bəsidir. Dünya malına bağlı deyil, çoxda gözü yox, azda təmənnası. Türkçülük dəlisi, sevdalısıdır...

Rasim müəllimə istəklərim arzularımdan çox, arzularım da istəklərimdən. Ömrünün bu hesabatlı anlarında üzümü ona tutub kənd yerlərində ağsaqqal babalarımızdan, ağbirçək nənələrimizdən eşitdiyim bir diləyi məhəbbətlə təkrar etmək istərdim: Rasim müəllim, heç vaxt dizləriniz təpərdən, gözləriniz kəsərdən düşməsin. Və öz adımdan əlavə edirəm: düşüncələriniz, fikirləriniz həmişə indiki kimi aydın və güclü məntiqə söykənsin.

* * *

Rövşən Cavadov,
Bakı Dövlət Universiteti, psixologiya üzrə fəlsəfə doktoru, dosent

R.Süleymanovun həm şəxsi həyatında, həm də elmi yaradıcılıq fəaliyyətində qazandığı uğurları, nailiyyətləri xeyli saydadır. Təbii ki, insanların heç də hamısında uğurlarına, nailiyyətlərinə münasibətdə özləri haqqında təsəvvürləri adekvat olmur və təsadüfi deyildir ki, bu uğurlar, nailiyyətlər müqabilində insanların bir qismi əyninə geydiyi paltara, digər qismi yaşadığı mənzilə, bir başqa qismi isə hətta vətəndaşı olduğu ölkəyə sığmır. R.Süleymanov isə öz sadəliyi, mehribanlığı, xeyirxahlığı, qayğıkeşliyi, bütövlükdə isə mükəmməl məzmunu ilə həmişə yaşadığı mühitə sığıb, insanlarla xoş münasibətdə olub, həyat ona darlıq etməyib.

Bütün bu keyfiyyətlər isə onda məhz uşaqlıqdan rastlaşdığı çətinlikləri dəf etmək, istənilən situasiyadan uğurla çıxmaq naminə sərf etdiyi böyük zəhmətin müqabilində formalaşmışdır. Elə bir zəhmətin ki, hər dəfə ömür yoluna nəzər saldıqda o R.Süleymanova qürur, sevinc və fərəh hissləri yaşadır. İnsan üçün həyatda bu hisslərdən də gözəl və faydalı başqa nəsə təsəvvür etmək çətindir.

R.Süleymanov yüksək intellektə sahib alim və həm də gözəl pedaqoqdur. O, kitab tarixi, kitabşünaslıq, idarəetmə məsələləri və s. sahələr üzrə xeyli sayda monoqrafiya, dərslik, dərs vəsaitləri və məqalələrin müəllifidir. Onun çoxsaylı tələbə və müəllim kollektivi ilə

münasibətləri həmişə yüksək səviyyədə olmaqla, qarşılıqlı hörmət və nəzakətə əsaslanıb.

Şəhla Tahirqızı,
Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent

Mən Kitabxanaçılıq-informasiya fakültəsinə qəbul olunanda Rasim Süleymanov artıq fakültədə işləmirdi. Rektorluqda çalışırmış həmin vaxt, sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, daha sonra Təhsil Nazirliyində.

Lakin mən həmişə istər universitetdə tələbə olanda, istərsədə müəllim kimi fəaliyyətə başladığım dövrdə müəllimlərimdən,həmkarlarımdan, qısası, fakültənin "başbilənlərindən" təhsillə, təhsilmüəssisələri ilə bağlı özünün, övladının, nəvəsinin, qohum-qonşusununçözülməyən problemini həll etmək üçün bu ifadələri eşidirdim: "Rasim müəllimlə danışmaq lazımdır", "Rasim müəllimə müraciət et", "Rasim Süleymanovdan soruşaq, məsləhətləşək görək nə deyir" və s. və ilaxır müraciət formaları.

Rasim müəllimdən çox şey öyrənmək olar: bağışlamaq, çox şeylərin üstündən sükutla keçmək, qüsuru və savabıyla qarşısındakı insanı (böyüklüyündən, kiçikliyindən, vəzifəsindən, sosial statusundan asılı olmayaraq) sevmək, dəyər verə bilmək kimi ali duyğuları.

Bütün bu saydıqlarım hər kəsin yumruq boyda ürəyinə yerləşdirə biləcəyi hisslər deyil, Rasim müəllim! Bəzən mən söhbət əsnasında hansısa şahidi olduğum hadisəni Sizə xatırladıram. Sakitcə gülümsəyir:"Balıq bilməsə də, xaliq biləcək, Şəhla bacı, belə şeylərlə özünü yorma" deyirsiniz. Və mənim anlayışımda bu da hər kəsin sərgiləyə biləcəyi münasibət deyil. Bunu bu fakültədə ancaq Rasim Süleymanov edə bilər və edir. Və bir də Rasim müəllim tənqidlərin və təriflərin yanından qürurla keçə bildiyi üçün, Şekspir demiş, göydə mələklər də ona qibtə edir, nəinki yerdəki şeytan xislətli adamlar.

Rasim müəllim, sözün əsl mənasında, xoşbəxt ziyalıdır. Ona görə ki, kimsəyə həsəd aparmadan bacara bildiyi yaxşılığı, xeyirxahlığı bacardığı biçimdə səssizcə gerçəkləşdirə bilir.

Dəyərli Rasim müəllim! 70 yaş hər insanın gəlib yetişə bildiyi məqam deyil. Şükürlər olsun ki, Siz bu müdrik məqamı haqlamısınız. Mən Sizə - böyük ziyalıya, vətəndaşa, alimə, gözəl müəllimə Tanrının verdiyi ömür payını daima sevərək və sevilərək yaşamağı, yaradıcılıq işlərinizdə fədakarlıq və bu fədakarlığı şövqlə davam etdirə bilməniz üçün cansağlığı arzu edirəm.

* * *

Sevda Quliyeva,
Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru

İnam, etibar üzərində qurulmuş dostluqlar, həqiqətən, qibtə olunacaq haldır. Sadiq dostlardan, yaxşı insanlardan, mərhəmət hissini hələdə özündə daşıyan şəxslərdən bəhs edərkən, yaş fərqimizə baxmayaraq, çox axtarışlar aparmadan nümunə kimi kafedramızın çox hörmətli müəllimi, həmkarım Rasim Süleymanovu xatırlamamaq qeyri-mümkündür. Rəhmətlik atam hər zaman deyərdi ki, həyatda böyük qazanclardan biri sadiqliyi ilə sınanmış istəkli dostlardır. Rasim Süleymanov da onlardan biridir.

Əsası görkəmli elm xadimi, tanınmış kitabxanaşünas alim, professor Abuzər Xələfov tərəfindən qoyulmuş Kitabxanaçılıq-informasiya fakültəsininyetirməsi olmasından hər zaman fəxr edən Rasim müəllim bu fakültənin yaşaması və inkişafı naminə əlindən gələni əsigəmədən onun adını daima qoruyub saxlamağa çalışan bir şəxsdir. Ömrünün çox hissəsini Bakı Dövlət Universitetində keçirmiş bu ziyalı insanla ilk tanışlığım mənim tələbəlik illərimə təsadüf edir. İlk tanışlıq müəllim-tələbə münasibəti üzərində qurulan və sonralar həmkarlığa gətirib çıxaran bu səmimi və qarşılıqlı münasibət böyük dostluğa qapı açmışdır və bu dostluq bu gün də öz qüvvəsindədir.

Rasim müəllim özündə Azərbaycan ziyalısının ən yaxşı keyfiyyətlərini birləşdirir. Belə bir deyim vardır ki, istedadlı insan hər sahədə istedadlıdır. Bu mənada Rasim müəllim müsbət keyfiyyətləri, məqsədyönlü iradəsi və zəhmətsevərliyi sayəsində uğur qazanmışdır. Belə ki, Bakı Dövlət Universitetində aspirant, müəllim, dosent, birinci prorektorun müavini, rektorun köməkçisi vəzifəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında məsul şəxs və sonralar Azərbaycan Respublikasının Təhsil Nazirliyində çox nüfuzlu əməkdaş kimi fəaliyyətini davam etdirmişdir. Çalışdığı dövlət əhəmiyyətli təşkilatlarda yüksək vəzifələrdə olmasına baxmayaraq, mərhəmətli və qayğıkeş insan olan Rasim müəllim hər zaman öz sadəliyini, insanlara olan məhəbbətini, qayğısını və yaxşılıq etmək kimi alicənab hisslərini qoruyub saxlamışdır və bu keyfiyyətlər bu gün də davam etməkdədir.

* * *

Məzahim Hüseynov,
Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin "Kitabşünaslıq" ixtisası üzrə IV kurs tələbəsi

Daxili aləmi, yüksək səviyyədə pedaqoji qabiliyyəti ilə hamımızın sevimlisinə çevrilmiş Rasim Süleymanov həm də respublika miqyasında hörmət və rəğbət qazanmış bir insandır. Təhsil həyatı və pedaqoji fəaliyyəti yalnız uğurlarla dolu olan Rasim müəllim həm də respublika təhsil sisteminə rəhbərlik edən şəxslərlə çiyin-çiyinə çalışaraq təhsilimizdə yeni era yaradanlardandır. Pedaqoji fəaliyyəti müddətincə yüzlərlə savadlı, vətənpərvər gənc yetişdirən bu insana nə qədər təşəkkür etsək azdır.

Rasim müəllim spesifik dərs metodu ilə tədris etdiyi bütün fənləri auditoriyaya sevdirməyi maksimum səviyyədə bacarır. Həmçinin özünü təsdiqləmiş hər bir azərbaycanlı kimi Rasim müəllimin də qəlbində Qarabağ dağı vardır. Hər fürsətdə bizimlə Qarabağ həqiqətləri haqqında söhbət aparır, bizdə yeni ruh yaradır.

Biz Rasim müəllimi müəllimizdən əlavə həm də doğmamız kimi qəbul etmişik. Rasim müəllimə uzun ömür və mənalı həyat arzulayıram.